**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**MAGİSTRATURA SƏVİYYƏSİ ÜÇÜN**

**İXTİSAS: 060201 – AZƏRBAYCAN DİLİ**

**FƏNN İF- M2493 MƏTN SİNTAKSİSİ**
**fənni üzrə**

# P R O Q R A M

**(I kurs)**

*Bakı Dövlət Universitetinin Rektorunun*
*08.01.2018-ci il tarixli R-02 saylı əmri ilə*
*nəşr hüququ verilmişdir.*

**Bakı – 2018**

**Tərtib edən:** **Həsənova Elmira Calal qızı –**
Azərbaycan dilçiliyi kafedrasının dosenti,
filologiya üzrə fəlsəfə doktoru

**Rəy verənlər:** **Əlizadə Fikrət Firuz oğlu –**
Azərbaycan dilçiliyi kafedrasının dosenti,
filologiya üzrə fəlsəfə doktoru

**Bəylərova Aytən Müslim qızı –**
AMEA Nəsimi adına Dilçilik İnstitunun
aparıcı elmi işçisi, fil.ü.f.d, dosent

© *"Bakı Universiteti Nəşriyyatı", 2018*

## İXTİSAS: 060201 – AZƏRBAYCAN DİLİ
## FƏNN İF-M2493 MƏTN SİNTAKSİSİ

### İZAHAT VƏRƏQİ

"Mətn sintaksisi" fənni üzrə Azərbaycan dili ixtisası alan magistrantlara I kursda 30 saat (15 saat mühazirə, 15 saat məşğələ) həcmində tədris edilir. Fənnin həcmi mütəxəssis hazırlığı üzrə Dövlət Standartının tələbinə uyğundur. Fənn üzrə tədris işinin əsas növü mühazirə və praktik məşğələdir. Məşğələnin əsas forması ilə yanaşı, tələbənin auditoriyadankənar vaxtda yerinə yetirdiyi müntəzəm məcburi sərbəst işi də böyük əhəmiyyətə malikdir.

**Fənnin mənimsənilməsinin məqsəd və vəzifələri**

**Kursun məqsədi** – tələbələri mətn sintaksisi haqqında elmin müasir vəziyyəti ilə tanış etmək, onlara mətn sintaksisi barədə magistratura proqramının müəyyən etdiyi həcmdə biliklər vermək, gələcək mütəxəssislərdə mətn sintaksisinin düzgün tətbiqi vərdişlərini formalaşdırmaq və inkişaf etdirmək, tələbələrə mətnin fikir mübadiləsində rolunu ardıcıl və hərtərəfli öyrətmək, cümlənin iki üzvlənmə yönünü qeyd etmək, müxtəlif funksional kommunikativ məqsədlərlə istifadə olunan funksional kommunikativ vahidlər sistemi kimi Azərbaycan dilinin sintaktik quruluşunu nəzərdən keçirməkdir.

**Kursun vəzifələri:**

1. Tələbələrdə mətn sintaksisinin əsas anlayışı və konsepsiyaları haqqında təsəvvür formalaşdırmaq;
2. Tələbələrə dilin bu qrammatik səviyyəsinin öyrənilməsinin əhəmiyyətini izah etmək;
3. Tələbələrdə Azərbaycan ədəbi dilinin sintaktik sistemi haqqında tam təsəvvür yaratmaq;
4. Tələbələri dilin struktur tipləri ilə tanış etmək, mətn sintaksisi və onun informativliyi haqqında məlumat vermək;

5. Tələbələrdə sintaktik təhlil, mətn strukturlarını fərqləndirmək və müqayisəli təhlilə cəlb etmək;
6. Tələbələrdə dil materialını təhlil etmək, fərqləndirmək və təhlilə cəlb etmək vərdişlərini inkişaf etdirmək.

## Fənnin tədris prosesində yeri

Azərbaycan dilinin sintaktik quruluşunu, struktur tiplərini, onların informativliyini öyrənən İF-B2493 "Mətn sintaksisi" mütəxəssis hazırlığı üzrə fənlər silsiləsini təşkil edən nəzəri fənlərdən biridir. Bu kursa qrammatikanın bir şöbəsi olan mətn sintaksisinin öyrənilməsi, onların struktur tiplərinin ətraflı təsviri və informativliyi daxildir.

Mətn sintaksisinin obyektiv aləmin münasibətlərini ifadə edən vahid kimi dil sistemində yeri, quruluşu, informativliyi daxildir.

Mətnin öyrənilmə istiqaməti – formal, semantik kommunikativ sintaksis kimi nəzərdən keçirmək.

Mətnin məntiqi-qrammatik hadisə kimi müəyyənləşdirilməsi, onun struktur-semantik tipləri, onların qrammatik və aktual (semantik) üzvlənməsinin izlənilməsi.

**Fənnin mənimsənilməsi nəticəsində tələbə bilməlidir:**

- mütəxəssisin praktik hazırlanmasının əsasını təşkil edən mətn sintaksisi nəzəriyyəsinin başlıca müddəaları;
- müasir dilin mətn sintaksisinin baza anlayışı və konsepsiyaları
- sintaktik tədqiqatın əsas metodları
- mətn strukturların xarakteristikası
- mətn və onun informativliyi

**Bacarmalıdır:**

- əsas sintaktik prosesləri təhlil etməyi
- qazanılmış nəzəri və praktik bilikləri ünsiyyət prosesində tətbiq etməyi
- elmi ədəbiyyatla işləməyi bacarmalıdır

**Yiyələnməlidir:**

- Dilin sintaktik qanunlarına və onları müxtəlif situasiyalarda həyata keçirmək bacarığına;
- Fənnin anlayış kateqorial aparatına, tədris-metodiki və elmi ədəbiyyatla işləmək vərdişlərinə;
- Müxtəlif tipli informasiyaların müstəqil şəkildə axtarışı, işlənib hazırlanması və istifadə vərdişlərinə.

## Mövzular üzrə saatların bölgüsü

| № | Mövzular | o cümlədən | | |
|---|---|---|---|---|
| | | cəmi | müh | sem |
| 1 | Dilin sintaktik sistemində mətnin yeri | 4 | 2 | 2 |
| 2 | Mətn struktur-semantik əlaqəli vahid kimi | 8 | 4 | 4 |
| 3 | Mətn komponentləri arasında məntiqi-semantik əlaqə | 4 | 2 | 2 |
| 4 | Mətnin kommunikativ üzvlənməsi | 4 | 2 | 2 |
| 5 | Mətnin formalaşmasında zaman uyuşmaları, leksik-qrammatik vasitələr | 8 | 4 | 4 |
| 6 | Mətn sərhədlərinin müəyyənləşməsi | 2 | 1 | 1 |
| | | | | |
| Cəmi: | | 30 | 15 | 15 |

## Mövzular və onların məzmunu

**1. Dilin sintaktik sistemində mətnin yeri.**

Dilin sintaktik sistemində mətnin yeri.

[2], [5],[7]

**2. Mətn struktur-semantik əlaqəli vahid kimi.**

Mətn struktur-semantik əlaqəli polipredikativ vahid kimi. Mürəkkəb cümlə və mətn polipredikativliyi.

[2], [3],[9]

**3. Mətn komponentləri arasında məntiqi-semantik əlaqə.**

Mətn daxilində komponentlərin qarşılaşdırma, səbəb-nəticə və s. məntiqi-semantik əlaqələr ilə reallaşması, mürəkkəb struktur və informasiya kimi formalaşması.

[2], [5],[6]

**4. Mətnin kommunikativ üzvlənməsi.**

Mətn komponentlərinin üzvlənməsində Tema və Rema əvəzlənməsi. Mətnin paralel və ardıcıl semantik açılışı

[3],[5],[9]

**5.Mətnin formalaşmasında zaman uyuşmaları, leksik-qrammatik vasitələr.**

Mətnin formalaşmasında zaman uyuşmaları və qrammatik vasitələr

[1], [3] ,[10]

**6. Mətn sərhədlərinin müəyyənləşməsi**

Mətndə fikrin inkişafı: başlanğıc-inkişaf-nəticə.

[2], [5],[9]

**Tədris texnologiyaları təliminin intensiv formaları**

Bu kursda tədris fəaliyyətinin aşağıdakı formalarından istifadə edilir: mühazirələr, praktik məşğələlər, tələbələrin sərbəst işləri.

**Tədris resursları**

Tədris avadanlığı və əyani vasitələr

**Sərbəst (fərdi) işlərin mövzuları**

1.Mətn polipredikativ sintaktik vahid kimi

2. Mətn komponentlərinin məntiqi-semantik əlaqəsi

3. Mətnin semantik üzvlənməsi. Tema – Rema əvəzlənməsi

4. Mətnin formalaşmasında leksik təkrarların rolu

5. Mətnin formalaşmasında sintaktik təkrarların rolu

6. Mətn sərhədlərinin müəyyənləşdirilməsi

7. Mətn və abzas

## Tövsiyə edilən ədəbiyyat


**Əsas**

1.Abdullayev K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif, 1999, 281 s.

2.Adilov M. Azərbaycan dilində sintaktik təkraralar // SSR Ali və orta İxtisas Təhsili Nazirliyinin elmi əsərləri. Bakı: 1974, 287 s.

3.Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər. Bakı, 1912, 586 s.

4.Bəyzadə Q.M. Dil sistemində yeni qatlar problemi. Bakı, 1998, 1

5.Kazımov Q. Müasir Azərbaycan dili sintaksis. Bakı: Ünsiyyət, 200, 496 s

6.Novruzova N.S. Mətn sintaksisi. Bakı: 2002, 110 s.

**Əlavə**

1.Абдуллайев К.М. Об щдной критерии определения границ текста, Советская тюркология 1987, № 3, 50-57 с

2.Əlizadə F. Cümlənin aktual üzvlənməsi. Bakı: Bakı Dövlət Universiteti, 1998, 85 s.

3.Xəlilov Ə.Ə. Əvəzliklərin müstəqil cümlələr arasında əlaqə yaratmaqda rolu. Bakı: 1969, Azərb. EA-nın xəbərləri, № 1, s. 65-72.

4.Qurbanov A. Bədii mətnin linqvistik təhlili. Bakı: Şərq-Qərb, 2000, 160s



*Çapa imzalanmışdır 15.03.2018. Kağız formatı 60x84 1/16.*
*Sifariş 60. Həcmi 0,5 ç.v. Sayı 200.*

---

*«Bakı Universiteti Nəşriyyatı», Bakı, AZ 1148, Z.Xəlilov, 23.*